Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 794

# NƏĞMƏLƏR NƏĞMƏSİ

## KİTABI

## GİRİŞ

*«Nəğmələr Nəğməsi»* poetik kitab olub məhəbbət şeirlərindən ibarətdir. Kitabın baş qəhrəmanı qızdır. Burada əsasən qız oğlanla, oğlan qızla şeirlərlə deyişir. Bu şeirlərdə insan məhəbbətinin ecazkar qüvvəsindən bəhs edilir.

Məhəbbət insana Allah tərəfindən verilmişdir. Buna görə də Müqəddəs Kitaba *«Nəğmələr Nəğməsi»*nin daxil olması heç də təəccüblü deyil. Bu şeirlərin şərhi məcazi məna daşıyır. Bu məhəbbət nəğmələri yəhudilər tərəfindən Allahla xalqının münasibətlərinin əyani təsviri kimi şərh edilir. Məsihçilər isə bunu İsa Məsihlə imanlılar arasında olan münasibətlərin əksi kimi şərh edirlər.

***Kitabın məzmunu:***

1:1-2:7 Birinci nəğmə
2:8-3:5 İkinci nəğmə
3:6-5:1 Üçüncü nəğmə
5:2-6:3 Dördüncü nəğmə
6:4-8:4 Beşinci nəğmə
8:5-14 Altıncı nəğmə

1 [1]Bu nəğmələr nəğməsi
Süleymanındır.

*Qız:*

[2]Qoy dodaqların məni öpdükcə
öpsün,
Çünki eşqin şərabdan da yaxşıdır.
[3]Vurduğun ətrin qoxusu nə
gözəldir,
Adın belə, ətirqabıdan tökülən ətri
xatırladır,
Ona görə qızların sevimlisi
olmusan.
[4]Bağrına bas məni, səninlə qaçaq,
Qoy padşah məni otağına aparsın.

*Qızın rəfiqələri:*

Səninlə sevinib biz şadlanarıq,
Şərabdan da artıq eşqinizi anarıq.

*Qız:*

Sənə heyran olanlar haqlıdır.
[5]Ey Yerusəlimdəki qızlar,
Qedar çadırları tək,
Süleymanın pərdələri tək
Qaralsam da mən,
Yenə gözələm.
[6]Baxmayın ki, mən qarayanızam,
Günəşdən qaralmışam,
Qardaşlarımın mənə qəzəbi
tutarkən

**1:1** *1Pad. 4:32*

Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 795



Məni üzümlüklərinə qarovulçu
qoydular.
Mən də öz üzümlüyümə baxa
bilmədim.
7Ey könlümün sevgilisi, söylə mənə:
Sürünü harada otarırsan?
Günorta sürünü harada yatırırsan?
Niyə sənin dostlarının sürülərinin
yanında gedən,
Üz-gözünü bürüyən bir qadına
bənzəyim?

*Qızın rəfiqələri:*

8Ey gözəllər gözəli, əgər yerini tapa
bilməsən,
Sürülərin izi ilə get,
Oğlaqlarını çoban çadırlarının
yanında otar.

*Oğlan:*

9Ey yarım, sən
Fironun arabalarını çəkən
Gözəl madyana bənzəyirsən.
10Yanağına düşən bəzəklərlə,
Boynundakı daş-qaşdan olan
boyunbağı ilə
Bax nə qədər gözəlsən.
11Sənə düymələri gümüşdən
Qızıl silsilə düzəldəcəyik.

*Qız:*

12Padşah süfrəsində oturarkən
Hər yanı nard çiçəyimin ətri
bürüyür.
13Mənim üçün sevgilim
Döşlərimin arasında yatan mirra
kisəsidir.
14Mənim üçün sevgilim
En-Gedinin üzüm bağlarındakı
bir dəstə xınagülüdür.

*Oğlan:*

15Ey yarım, nə gözəlsən, nə gözəlsən!
Göyərçin gözlüsən!

*Qız:*

16Ey sevgilim, nə gözəlsən,
Sən nə qədər şirinsən!
Yaşıldır yatağımız.

*Oğlan:*

17Evlərimizin dirəkləri sidr
ağacındandır,
Tavanımızın oymaları şam
ağacındandır.

*Qız:*

2 1Mən Şaron nərgiziyəm,
Dərələrdə bitən zanbağam.

*Oğlan:*

2Mənim yarım qızlar arasındadır,
Elə bil bir zanbaq tikanlar
arasındadır.

*Qız:*

3Mənim sevgilim oğlanlar
arasındadır,
Meşədəki ağaclar arasında alma
ağacına oxşayır.
Kölgəsində oturmaqdan
zövq alıram,
Meyvəsinin dadı damağımdan
getmir.

4O məni ziyafət evinə apardı,
Sevgisi bayraq kimi üzərimdə
dalğalanır.
5Mən eşq xəstəsiyəm,
Kişmiş verin, qüvvətlənim,
Alma verin, cana gəlim.

6Sevgilim sol əlini başımın altına
salır,
Sağ əli ilə məni qucağına alır.
7Ey Yerusəlimdəki qızlar,
sizi and verirəm

Dişi ceyranlara, çöldəki marallara!
Bizi bu sevgidən oyatmayın,
ayıltmayın,
Qoy könül istəyənəcən qalsın.

8Bu, sevgilimin hənirtisidir!
O, dağlardan aşaraq, təpələrdən
sıçrayaraq gəlir.
9Sevgilim ahuya, maral balasına
oxşayır,
Budur, hasarımızın o tayında
dayanır,
Pəncərələrdən boylanır,
barmaqlıqlardan baxır.
10Mənə belə dedi sevgilim:
«Dur gəl, yarım, gözəlim.
11Budur, artıq qış keçib,
Yağıntılar kəsilib.
12Hər yanda güllər bitib,
Nəğmə oxumağın zamanı yetib,
Qumrunun səsi torpağı bürüyüb.
13Əncir yaşıl bar gətirib,
Üzüm çiçəklənib ətrini saçır.
Dur gəl, yarım, gözəlim!»

*Oğlan:*

14Ey gözəl göyərçinim,
Sanki sal qayalarda, sıldırımlarda
gizlənmisən.
Qoy üzünü görüm, səsini eşidim,
Çünki şirin səsli, gözəl surətlisən.

15Tülküləri, kiçik tülküləri tutun,
Üzümlükləri korlamağa qoymayın,
Çünki bağlarımız çiçəklənib.

*Qız:*

16Sevgilim mənimdir, mən də
onunam,
O, sürüsünü zanbaqlıq içərisində
otarır.
17Gün sərinləşənəcən, kölgələr
düşənəcən,
Ey sevgilim, geri qayıt,
Şişuclu dağların qoynunda olan
Ahuya, maral balasına bənzərsən.

3 1Yatağımda bütün gecə
Könlümün sevgilisini axtardım,
Axtardım, amma tapa bilmədim.
2Dedim: «Qoy könlümün sevgilisini
axtarım,
Durub şəhəri dolaşım,
Küçələrdə, meydanlarda axtarım».
Axtardım, amma tapa bilmədim.
3Şəhər asayişini qoruyanlar məni
tapdı,
Onlardan soruşdum: «Könlümün
sevgilisini görməmisiniz ki?»
4Onlardan ayrılanda könlümün
sevgilisini tapdım,
Tutub onu buraxmadım.
Onu anamın evinə –
Məni doğan qadının otağına
apardım.

5Ey Yerusəlimdəki qızlar,
sizi and verirəm
Dişi ceyranlara, çöldəki
marallara!
Bizi bu sevgidən oyatmayın,
ayıltmayın,
Qoy könül istəyənəcən qalsın.

6Səhradan keçən,
Tüstü sütunları kimi gələn,
Tacirlərin ətirli bitkiləri içərisində
Mirra və kündür ətri verən
kimdir?
7Budur Süleymanın taxt-rəvanı!
Ətrafını İsrail igidlərindən altmışı
bürüyüb.
8Onların hamısı qılınc daşıyır,
Mahir döyüşçüdür,
Hər biri qılıncını belinə bağlayıb,
Təhlükəli gecələr üçün hazırlanıb.
9Taxt-rəvanını padşah Süleyman
Livanın ağaclarından düzəltdirib.

Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 797



10Sütunları gümüşdən, söykənəcəyi
qızıldan,
Oturacağı tünd qırmızı qumaşdan
düzəltdirib,
Yerusəlim qızları bu qumaşa
zövqlə naxış vurub.
11Ey Sion qızları, çıxın,
Padşah Süleymana baxın!
O, toy günündə, ürəkdən sevindiyi
gündə
Başına anasının verdiyi tacı
qoyub!

*Oğlan:*

4 1Ey yarım, nə gözəlsən, nə
gözəlsən,
Yaşmaq altda gözlərin göyərçinə
oxşayır,
Saçların Gilead dağının
yamaclarından
Tökülən keçi sürüsü tək
qapqaradır.
2Dişlərin qırxılmış, yenicə yuyunub
çıxan qoyun sürüsü tək düzülüb,
Bu qoyunların hamısının əkiz
balası var,
Aralarında balasız olanı yoxdur.
3Dodaqların qırmızı qaytan kimi
aldır,
Dilin nə qədər şirindir,
Kəsilmiş nar kimi yaşmaqladığın
yanaqlarından qan damır.
4Boynun sursat üçün tikilmiş
Davud qülləsi kimi vüqarlıdır,
Sanki buradan pəhləvan qalxanı
olan min sipər asılmışdır.
5Döşlərin cüt ceyran balası kimi
qoşadır,
Zanbaqlıqda otlayan əkiz maral
balasına oxşayır.

6Gün sərinləşənəcən, kölgələr
düşənəcən,
Mirra dağına, kündür təpəsinə
gedəcəyəm.

7Təpədən dırnağa qədər gözəlsən,
Yarım, tamamilə eyibsizsən.

8Ay gəlin, Livan bölgəsindən
mənimlə gəl,
Gəl, Livandan mənimlə gəl.
Amana təpəsindən, Senir, Xermon
təpələrindən, dağlardan,
Aslanlar yurdundan, dağlardan,
bəbirlər məskənindən en.

9Ay həmdəmim, ay gəlin!
Bir baxışınla qəlbimi aldın.
Ləl-cəvahiratı boynuna saldın,
Gözəlliyinlə qəlbimi aldın.
10Ay həmdəmim, ay gəlin!
Sevgin necə gözəldir,
Eşqin şərabdan da ləzzətlidir,
Sənin ətrin ətirlərin ən gözəlidir.
11Ay gəlin, dodaqlarından şanı balı
axır,
Bal və süd sənin dilinin
altındadır.
Paltarlarından Livanın ətri gəlir.
12Ay həmdəmim, ay gəlin!
Bir qapısı bağlı bağçasan,
Örtülü bir bulaq, möhürlənmiş
bulaqsan.
13Sənin fidanların nar bağçasına
oxşayır,
Elə bil cənnətdir, orada seçmə
meyvələr,
Xına və nard çiçəkləri var.
14Nard çiçəyi və zəfəran,
Ətirli qamışla darçınlar,
Hər cür buxur ağacı,
Mirralar və əzvaylar,
Hər cür seçmə ətriyyat var.
15Sən bağçaların bulağısan,
Canlı su qaynağısan,
Livanın axar suyusan.

Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 798



*Qız:*

16Oyan, ey şimal küləyi,
Dur gəl, ey cənub küləyi,
Gəlin mənim bağçamda əsin,
Qoy o, ətrini hər yana versin.
Sevgilim öz bağçasına gəlsin,
Seçmə meyvələrdən yesin.

*Oğlan:*

5 1Ay həmdəmim, ay gəlin! Öz bağçama girmişəm,
Ətriyyatlarımla mirramı yığmışam.
Şanı balını – öz balımı yemişəm,
Şərabımı və südümü içmişəm.

*Qızın rəfiqələri:*

Ay dostlar, yeyin,
Ay sevgililər, için, doyunca için!

*Qız:*

2Yatsam da, qəlbim oyaq idi.
Qapını döyən sevgilimin səsi gəldi:
«Qapını aç, ay həmdəmim, ay yarım!
Ay göyərçinim, ay eyibsizim!
İslandı başım şehdən,
Saçım gecənin nəmindən».
3Soyunmuşam paltarımı,
Geyinimmi təzədən?
Yumuşam ayaqlarımı,
Bulaşdırımmı yenidən?
4Sevgilim əlini qapının deşiyindən uzatdı,
Onun üçün mənim köksüm oynadı.
5Mən sevgilim üçün qapı açmağa qalxdım,
Əllərimə mirra damdı,
Barmaqlarımdan süzüldü,
Cəftə üstə töküldü.
6Mən sevgilimə qapı açanda
Sevgilim çıxıb getmişdi.
O məni çağıranda huşumu itirmişdim.
Mən onu axtardım, tapa bilmədim,
Mən onu çağırdım, lakin cavab gəlmədi.
7Şəhər asayişini qoruyanlar məni tapdılar,
Döyüb bədənimi yaraladılar,
Hasar keşikçiləri örpəyimi açdılar.
8Ey Yerusəlimdəki qızlar, mən sizə and verirəm,
Tapsanız sevgilimi, deyin ona:
«Mən eşq xəstəsiyəm».

*Qızın rəfiqələri:*

9Ey gözəllər gözəli,
Sevgilinin digərlərindən fərqi nədir?
Onu fərqləndirən nədir?
Axı niyə bizə belə and verirsən?

*Qız:*

10Sevgilim nur saçır, əlvan rənglidir,
O, on minlərin arasından seçilir.
11Başı sanki saf qızıldır,
Qıvrım saçı qara qarğa tək qaradır.
12Gözləri axar sular kənarındakı göyərçinlərə oxşayır,
Süd içində yuyunmuşlar,
Öz yuvasında cəvahir tək görünərlər.
13Yanaqları ətirli gülüstana oxşayır,
Hər yana ətir saçır,
Dodaqları zanbaqlara bənzəyir,
Ondan mirra tökülür.
14Əlləri sanki sarı yaqutla bəzənən qızıl budaqdır,
Qaməti sanki yaqutlarla naxışlanan fil dişidir.
15Qıçları saf qızıl ayaqlıqlar üstündə dayanan

Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 799



Mərmər sütunlara oxşar.
Görkəmi Livanın dağları kimidir,
Nadir sidr ağacları kimidir.
16Şirindillidir,
Təpədən dırnağadək gözəldir.
Ey Yerusəlimdəki qızlar, mənim sevgilim budur,
Mənim yarım budur.

*Qızın rəfiqələri:*

6 1Ey gözəllər gözəli, sevgilin hara gedib?
O hansı yana dönüb?
Səninlə birgə onu axtarmağa gedək.

*Qız:*

2Sevgilim öz bağçasına –
Ətirli gülüstana gedib,
Bağçalarda sürüsünü otarmağa,
Zanbaq gülü toplamağa gedib.
3Mən sevgilimin, sevgilim də mənimdir,
O, sürüsünü zanbaqlıq içərisində otarır.

*Oğlan:*

4Ey yarım, sən
Tirsa şəhəri qədər gözəlsən,
Yerusəlim kimi sevimlisən,
Müzəffər ordu kimi möhtəşəmsən.
5Gözlərini məndən ayır,
Onlar məni mat qoyur.
Saçların Gilead dağının yamaclarından
Tökülən keçi sürüsü tək qapqaradır.
6Dişlərin yenicə yuyunub çıxan qoyun sürüsü tək düzülüb,
Bu qoyunların hamısının əkiz balası var,
Aralarında balasız olanı yoxdur.
7Kəsilmiş nar kimi yaşmaqladığın yanaqlarından qan damır.
8Altmış mələkə var,
Cariyələr səksənə çatır,
Kənizlər isə saysızdır.
9Göyərçinimin, eyibsizimin tayı yoxdur,
Anasının yeganə qızıdır,
Onu doğanın canı-gözüdür.
Qızlar onu görərkən
Söyləyirlər: «Bəxtəvərsən!»
Mələkələr və cariyələr də onu mədh edir.

*Qızın rəfiqələri:*

10Şəfəq saçan,
Ay tək gözəl, gün tək parlayan,
Müzəffər ordu kimi möhtəşəm olan kimdir?

*Qız:*

11Mən qoz bağına endim,
Yaşıllaşan vadini görmək istədim.
Üzüm tumurcuqlanıbmı, narlar çiçəklənibmi?
Bunu seyr edim.
12Heç özüm də bilmədən ruhum məni apardı,
Şanlı xalqımın döyüş arabalarının üstünə qaldırdı.

*Qızın rəfiqələri:*

13Qayıt, ey Şulam qızı, qayıt,
Qayıt, səni görək, qayıt.

*Oğlan:*

Maxanayim oyununa tamaşa etdiyiniz kimi
Niyə Şulam qızına baxmaq istəyirsiniz?

7 1Ey əsilzadə qızı, başmaqlı ayaqların gözəldir,

Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 800



Budlarını sanki heykəltəraş yonub,
cəvahirə bənzəyir.
2Göbəyin cürbəcür şərabların
tükənmədiyi
Dəyirmi piyaləyə bənzəyir.
Belin zanbaqlara bürünən
Bir dəstə sünbülə bənzəyir,
3Döşlərin cüt ceyran balası kimi,
Əkiz maral balası kimi qoşadır.
4Boynun fil dişi qülləsi kimi
gözəldir.
Gözlərin Bat-Rabbim darvazası
yanındakı
Xeşbon hovuzuna bənzəyir.
Burnun Dəməşqə baxan Livan
qülləsi kimi gözəldir.
5Başın Karmel dağı kimi dik durur,
Başındakı tellər tünd qırmızı rəngə
çalır,
Padşah zülfünün əsiri olur.
6Nə qəşəngsən, nə şirinsən,
Ey məlahətli sevgilim.
7Qamətin xurma ağacına,
Döşlərin salxımlara bənzəyir.
8Dedim: «Qoy xurma ağacına
çıxım,
Meyvəli budaqlarından yapışım».
Döşlərindən üzüm salxımları kimi
dadım,
Nəfəsindən alma ətrini duyum.
9Dodaqların gözəl şərab dadı verir.

*Qız:*

Bu şərab birbaşa sevgilim üçün
tökülsün,
Biz yatanların dodaqlarına
süzülsün.
10Mən sevgiliminkiyəm,
Onun meyl etdiyi mənəm.
11Sevgilim, gəl çölə gedək,
Kəndlərdə gecələyək.
12Səhər tezdən üzüm bağlarına
gedək,
Üzüm tumurcuqlanıbmı,
pöhrə veribmi?
Narlar çiçəklənibmi? Bunu seyr
edək.
Qoy orada sevgimi sənə verim.
13Ey sevgilim, məhəbbət otları ətir
saçır,
Qapımızın yanında köhnə, təzə –
cürbəcür meyvələr var,
Sənin üçün saxlanılıb.

8 1Kaş ki mənə ananın
döşlərindən süd əmən
Bir qardaş kimi olaydın,
Küçədə səninlə rastlaşarkən səni
öpərdim,
Heç kim məni qınamazdı.
2Qarşına düşəydim, mənə öyüd
verən
Anamın evinə aparaydım.
Şirin şərabdan, narımın şirəsindən
Sənə içirəydim.

3Sevgilim sol əlini başımın altına
salır,
Sağ əli ilə məni qucağına alır.
4Ey Yerusəlimdəki qızlar,
sizi and verirəm
Dişi ceyranlara, çöldəki
marallara!
Bizi bu sevgidən oyatmayın,
ayıltmayın,
Qoy könül istəyənəcən qalsın.

*Qızın rəfiqələri:*

5Sevgilisinə söykənib çöldən gələn
Bu gözəl kimdir?

*Qız:*

Alma ağacı altda səni oyatdım.
Sən orada ananın bətninə
düşmüsən,
Orada anan ağrı çəkib,
səni doğub.

Sng Lat:Azeri Bible Latin 15.01.2009 11:37 Page 801



6 Məni qəlbinin başında,
qolunun üstündə
Bir möhür kimi saxla.
Çünki sevgi ölüm qədər
qüvvətlidir,
Qısqanclıq ölülər diyarı kimi
möhkəmdir,
Onun odu alovlanır,
O, atəşdir, tamamilə
yandırıb-yaxır.
7 Sevgini ümman sular söndürə
bilməz,
Onu çağlayan çaylar batıra
bilməz.
Bir insan sevgisi uğrunda
var-yoxunu versə belə,
Hamı ona xor baxar.

*Qızın rəfiqələri:*

8 Bir kiçik bacımız var,
Hələ döşləri çıxmayıb.
Bacımıza elçi gələn gün
Onun üçün nə edək?
9 Əgər o, bir hasar olsaydı,
Biz üstünə gümüşdən bürc
vurardıq.
Əgər o, bir qapı olsaydı,
Onu sidrdən xonça bağlayıb
dövrəyə alardıq.

*Qız:*

10 Mən bir hasaram,
Döşlərim qüllələrə oxşar,
Ona görə yarımın gözləri məndən
razı qalar.
11 Süleymanın Baal-Hamonda
bir üzüm bağı var idi,
O bu bağı kirayəyə verirdi.
Məhsula görə hər kirayə alan
Ona min parça gümüş gətirməli
idi.
12 Mənim də bağım var, onun
sahibiyəm,
Ey Süleyman, min parça gümüş
sənin olsun,
İki yüz gümüş kirayə alanlara
qalsın.

*Oğlan:*

13 Sən, ey bağçalarda məskən salan
gözəl,
Dostlar səni dinləyir,
Mənə də səsini eşitdir.

*Qız:*

14 Ey sevgilim, qaç,
Ətir saçan dağların üstündə,
Bir ahu, bir maral balası kimi ol.